# Məktəblilər Şəmkir və Göygölə səyahətdən məmnun qaldılar



"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində respublikamızın qərb bölgəsinə gələn Biləsuvar, Cəlilabad, Salyan, Masallı, Astara, Lerik və Lənkəranın IX-XI sinif şagirdləri bölgə ilə tanışlığı Şəmkir və Göygöl rayonlarında davam etdiriblər.

Səhər tezdən Şəmkirə gələn məktəblilər rayonla tanışlığa orta əsr Şəmkir qalasından başladılar. Qalanın qalıqları ilə tanış olan şagirdlərə məlumat verildi ki, böyük İpək yolu üstündə yerləşən bu qədim şəhər AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən aşkar edilib. Qala önündə xatirə şəkli çəkdirən tur-aksiya iştirakçıları sonra rayonla tanışlığı Heydər Əliyev Mərkəzində, Bayraq muzeyində, "Zəka" gənclərin intellektual inkişaf mərkəzində, Abidələr və İstiqlal parklarında, XIII əsrdə burada məskunlaşan almanlar tərəfindən inşa edilmiş Lüteran kilsəsində davam etdirdilər.

Heydər Əliyev Mərkəzində olarkən tur-aksiya iştirakçıları ulu öndərin həyat və fəaliyyətini əks etdirən guşələrə baxdıqdan sonra, burada təşkil olunmuş intellektual oyunda iştirak etdilər.

Günortadan sonra maarifləndirici tur-aksiya çərçivəsində məktəblilərin bölgə ilə tanışlığı Göygöl rayonunda davam etdirildi. Ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda mehribanlıqla qarşılanan məktəblilərə məlumat verildi ki, parkda Heydər Əliyev Mərkəzi, Gənclər sarayı, uşaq əyləncə mərkəzi, qapalı və açıq idman meydançaları, yay konsert salonu fəaliyyət göstərir. İlin bütün fəsillərində şəhər sakinləri bu obyektlərdən səmərəli şəkildə istifadə edirlər.

Sonra məktəblilər parkın ərazisini gəzdilər. Rayon icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Kəmalə İbrahimova şagirdlərə rayonun tarixi, iqtisadiyyatı, insanların məşğulluğu, eləcə də maddi mədəniyyət nümunələri haqqında ətraflı məlumat verdi. Diqqətə çatdırıldı ki, Göygöl rayonu ölkəmizin ən səfalı yerlərindəndir və hər il minlərlə yerli və xarici turist burada istirahət edir.

Məktəblilər vaxtilə alman ailələrinin yaşadıqları və son illər dövlət vəsaiti ilə əsaslı şəkildə təmir edilərək öz əvvəlki görkəminə qaytarılan evlərə də baxdılar. Tur-aksiya iştirakçıları rayonda yaşayan sonuncu alman Viktor Klaynın ev-muzeyində onun qorunub saxlanılan əşyaları ilə tanış oldular.

Şəmkir kimi, Göygöl rayonu da tur-aksiya iştirakçılarında xoş təəssürat oyatdı.

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyanın iştirakçısı, Biləsuvar qrupunun bələdçisi Amil Şirinov məktəblilərin Şəmkir və Göygöl rayonlarından aldıqları təəssüratı belə ifadə etdi: "Mən qərb bölgəsinin füsunkarlığı haqqında çox eşitmişdim. İndi bütün bunları öz gözlərimlə gördüm. Müstəqillik qazandıqdan sonra ölkəmizin bütün bölgələrinin belə sürətli inkişafı həm şagirdlərimizi, həm də biz müəllimləri çox sevindirir. Burada olduğumuz müddətdə şagirdlərlə maraqlı söhbətlərimiz oldu. Onlar bu aksiyanın təşkilinə görə dövlət başçısına minnətdarlıq edirlər".

Salyan şəhər 1 nömrəli orta məktəbin XI sinif şagirdi Lətifə Mustafayeva isə səfərlə bağlı bunları dedi: "Prezidentimizin tapşırığı ilə həyata keçirilən bu tədbirdə iştirak etdiyim üçün çox sevinirəm. Bu layihə ölkəmiz haqqında olan biliklərimizin artmasında müsbət rol oynayacaq. Qədim yaşayış məskənləri, tarixi məkanlarla tanışlıq, hətta onları öz gözlərimizlə görməyimiz Azərbaycan tarixini daha mükəmməl öyrənməyimizdə böyük rol oynayacaq. Odur ki, bu aksiyanın təşəbbüskarı olan Prezidentimizə minnətdarıq".

***AZƏRTAC***